Təhsilverənlərin sertifikatlaşdırılması prosesinin müsahibə mərhələsi ilə bağlı Azərbaycan və rus bölmələri üzrə mövzular təqdim olunub. Müəllimlər miq.edu.az saytı və ya portal.edu.az platformasına daxil olmaqla hər iki bölmə üzrə müsahibə mövzuları ilə tanış ola bilərlər.

Xatırladaq ki, müsahibə zamanı müəllimlər proqram üzrə mövzunu təqdimetmə, təhsilalanları qiymətləndirmə, özünütəqdimetmə, pedaqoji prosesi təşkiletmə və ünsiyyət bacarığı meyarları üzrə müvafiq komissiya tərəfindən qiymətləndiriləcəklər.